# Naxışla danışan miras - xalçaçılıq sənəti

**Azərbaycan xalçaçılığı - yalnız bir sənət növü deyil, eyni zamanda xalqımızın minilliklər boyu formalaşmış düşüncə tərzinin, duyğularının, estetik dünyagörüşünün rəmzidir. Hər bir ilmə, hər bir naxış xalqımızın mənəvi aləmini, həyat fəlsəfəsini, fitri estetik zövqünü ifadə edir. Qədim dövrlərdən bu yana evlərimizi bəzəyən xalçalar zamanla bir millətin ruhunun daşıyıcısına çevrilib. İllərlə bu sənətə könül verən, zəhməti ilə xalçamızı dünyaya tanıdan xalçaçılar üçün rəsmi şəkildə bir peşə bayramının olmaması təəssüf doğururdu. Nəhayət, 2016-cı ilin mayında "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradıldı və 5 may Azərbaycanda Xalçaçı Günü kimi qeyd olunur. Bu əlamətdar gün xalçaçılığa verilən dəyərin, xalçaçılara olan hörmətin simvoludur.**

Bu peşə bayramı həm də ümummilli lider Heydər Əliyevin doğum günü ərəfəsində qeyd olunur. Axı məhz onun siyasi uzaqgörənliyi və milli irsə bağlılığı nəticəsində Azərbaycanda mədəniyyətin, sənətkarlığın dirçəlişi baş verdi. Əgər bu gün biz müstəqil Azərbaycanın varlığından, onun milli sənət növlərinin dirçəlişindən danışırıqsa, bu, Heydər Əliyevin bizə miras qoyduğu güclü dövlətçilik təməlləri sayəsindədir. Müstəqil dövlətimiz olmasaydı, xalq sənətimizin təbliği üçün bu qədər geniş imkanlar yaranmazdı. Xalçalar yalnız muzeylərdə qorunan keçmişin xatirəsinə çevrilə bilərdi. Amma bu gün o, yenidən nəfəs alır, gənc nəsillər bu sənətə yiyələnir, Azərbaycan xalçası dünyanın sərgi salonlarında baş tacı olur.



Ümummilli lider Heydər Əliyevin xalça sənətinə qayğısı nəticəsində Azərbaycanda dünyada birinci Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyi yaradılıb. "Azərxalça" EİB yeni inkişaf mərhələsinə qədəm qoyub. Məhz ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin uzaqgörən addımları ilə bu sənətə göstərilən diqqət və qayğı daha da güclənib. Elə 5 may Xalçaçı Gününün qeyd olunması da Prezidentin imzaladığı müvafiq Sərəncam nəticəsində rəsmiləşdirilib. Bundan başqa, ölkəmizin müxtəlif bölgələrində xalça istehsalı emalatxanaları tikilərək istifadəyə verilib. Xalçaçılıq sahəsində aparılan bu islahatlar bir tərəfdən qədim sənətin müasir dövrdə yaşadılmasına xidmət edirsə, digər tərəfdən regionlarda iş yerlərinin açılması, sosial rifahın yaxşılaşdırılması baxımından da əhəmiyyətlidir. Prezident İlham Əliyevin 2016-2020-ci illər ərzində verdiyi tapşırıqlar əsasında "Azərxalça" ASC-nin 20-dən artıq filialı fəaliyyətə başlayıb.

Bu dəyərli sənətin qorunub saxlanılması və dünya miqyasında tanıdılması istiqamətində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da fəaliyyəti xüsusi qeyd olunmalıdır. Onun təşəbbüs və səyləri nəticəsində qədim sənət növü yalnız ölkə daxilində deyil, beynəlxalq arenada da layiqli şəkildə təqdim olunur. Xalçaçılığın inkişafı, xalçaçıların sosial vəziyyətinin yaxşılaşdırılması, gənclərin bu sənətə cəlb edilməsi üçün mütəmadi olaraq dəstək göstərilir. Onun xalçaçılara olan həssas münasibəti, peşəkar fəaliyyətlərinin stimullaşdırılması istiqamətində gördüyü işlər bu sənətin yaşaması və inkişafına misilsiz qayğıdır. Bu qayğının ən böyük təzahürlərindən biri də 2010-cu ildə Keniyanın Nayrobi şəhərində keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin V sessiyasında Azərbaycan xalçaçılıq sənətinin bəşəri dəyər kimi UNESCO-nun Qeyri-Maddi İrs Siyahısına salınmasıdır. Məhz Mehriban xanımın təşəbbüsü və dəstəyi ilə bu uğur gerçəkləşdi.

Sənətşünas, xalçaçı rəssam Lətif Kərimov Azərbaycan xalçasını 4 qrupa aid edirdi: Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ və Təbriz xalçası. Onların hər birini fərqli xüsusiyyətlərə və bədii üsluba görə elmi əsaslarla təsnif edibdir. Bu təsnifat indi də tədqiqatçılar və sənətsevərlər üçün etibarlı mənbədir. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya Fondu isə bu sənətin zənginliyini faktlarla əks etdirir. Fondda xalqımızın məişətində istifadə olunmuş toxuculuğun ən ibtidai formaları - həsir, çətən, keçə kimi nümunələrdən tutmuş, mürəkkəb texnika ilə hazırlanan xovlu və xovsuz xalçalara qədər 700-dən çox eksponat qorunur. Qeyd etmək yerinə düşər ki, fond yalnız yerli xalçalarla məhdudlaşmır. Burada Əfqanıstan, İran, İraq, Türkmənistan, Tacikistan, Özbəkistan, eləcə də Almaniya, Rusiya (xüsusilə Dağıstan və Kabardin-Balkar respublikaları), Moldova, Rumıniya, Belarus, Mali Respublikası ölkələrindən muzeyə hədiyyə edilmiş xalçalar da saxlanılır. Bu nümunələr xalçaçılığın beynəlxalq miqyasda necə geniş yayıldığını və Azərbaycanla digər xalqlar arasında mədəni əlaqələrin gücünü nümayiş etdirir. Belə zəngin bir fond və davamlı elmi tədqiqatlar sayəsində Azərbaycan xalçası nəinki muzey vitrinlərində, həm də elmi ədəbiyyatın səhifələrində, beynəlxalq sərgilərdə yaşayır, çağdaş dövrdə də dəyərini itirmir.

Xalçaçılığa genişmiqyaslı dəstək bir günün işi deyil - bu, böyük bir tarixi dövrə hesablanmış strateji yanaşmanın nəticəsidir. Azərbaycan dövləti bu sahədə həm təhsil, həm istehsalat, həm də mədəni irsin qorunması istiqamətində mühüm addımlar atır. Bu cür ardıcıl siyasətin nəticəsində gələcək illərdə ölkəmizdə yeni nəsil xalça mütəxəssisləri yetişəcək. Onlar yalnız qədim texnika və ornamentləri deyil, həm də bu sənətin fəlsəfi və simvolik qatlarını dərindən mənimsəyəcəklər. Beləliklə, xalçaçılıq sadəcə bir peşə kimi deyil, milli kimliyimizin daşıyıcısı kimi yaşamağa davam edəcək.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

Respublika .- 2025.- 4 may (№90).- S.10.